# 8 mart-Beynəlxalq Qadınlar Günüdür

## Rayon qadınlarının təntənəli bayram şənliyi

Martın 7-də "Qafqaz" Sport hotelin restoranında 8 mart—Beynəlxalq Qadınlar Günü münasibətilə rayon qadınlarının təntənəli bayram şənliyi keçirilmişdir. Xüsusi bəzədilmiş salona rayonun ən fəal qadınları, ictimaiyyətin nümayəndələri dəvət olunmuşlar.

Bayram şənliyində rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev və aparatın məsul işçiləri iştirak edirdilər.

Təntənəli tədbiri giriş sözü ilə rayon icra hakimiyyəti başçısının müavini Ə. Osmanova açdı və tədbirdə iştirak edən qadınlarımızı, onların şəxsində rayon qadınlarını təbrik etmək üçün sözü Səbuhi Abdullayevə verdi. Səbuhi Abdullayev Qəbələ rayon qadınlarının ölkə qadınları ilə birlikdə müstəqil Azərbaycan dövlətinin və dövlətçiliyinin möhkəmləndirilməsində, ölkənin çiçəklənməsində, habelə rayonumuzun ictimai-siyasi, sosial həyatında iştirakından, uğurlu inkişaf naminə var gücləri ilə çalışmalarından, yeni sağlam cəmiyyət quruculuğuna öz töhfələrini verməsindən söhbət açdı. Eyni zamanda təbrikdə qadınlarımızın gənc nəslin sağlam və vətənpərvərlik ruhunda böyümələrinə sərf etdikləri







müqəddəs əməyi də yüksək qiymətləndirildi. Həmin ənənə bu gün də davam etməkdədir.

Hal-hazırda respublikamızda qadınlarımıza göstərilən qayğı və diqqət möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Təbrikinn sonunda cənab başçı Səbuhi Abdullayev rayonumuzun qadınlarını 8 mart—Beynəlxalq Qadınlar Günü münasibəti ilə bir daha təbrik etmiş və onlara öz xoş arzularını bildirmişdir.

Tədbirdə rayon maliyyə idarəsinin məsləhətçisi Esmira Ağayeva çıxış edərək Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı rayon qadınları adından təbrik etdi və ona respublikanın ictimai-siyasi həyatında, təhsilin, mədəniyyətin inkişafında gördüyü səmərəli və məqsədyönlü işlərdə uğurlar arzuladı.

Tədbiri sonadək «Qafqaz» Resort otellərin musiqi qrupu müşayiət etmişdir. Qrupun ifasında səslənən rəngarəng Azərbaycan milli rəqsləri, estrada və xalq mahnıları bayram iştirakçılarında xoş ovqat yaratmışdır.

Rayon qadınlarının 8 mart təntənəli bayram şənliyi 3 saatdan artıq davam etmişdir.

* * *

8 mart—Beynəlxalq Qadınlar Bayramı münasibətilə rayonun təhsil, səhiyyə, mədəniyyət, habelə digər idarə və müəssisələrində də tədbirlər keçirilmişdir.

**O. MƏMMƏDOV.**

**Fotolar S. Umuyevindir.**

## Qadınların bayramı cəmiyyətin bayramıdır

Tariximizdən məlumdur ki, Azərbaycanda qadın, ana həmişə müqəddəs sayılmış, ona böyük ehtiram göstərilmişdir. Ana haqqı Tanrı haqqına bərabər tutulmuşdur. Azərbaycan qadını dövlət idarəçiliyində öz sözünü deyib, həyat yoldaşının silahdaşı olub. Ən əsası Azərbaycan qadını həmişə gözəl ana olub. Ailə dəyərlərini, ailə müqəddəsliyini qorumaq, ana olmaq hissi daha çox bizim xalqa məxsus xarakterik xüsusiyyətdir. Ümumiyyətlə, isə Azərbaycan qadını müqəddəs dəyərlər simvoludur. Biz bununla fəxr edirik, qürur hissi keçiririk.

Ulu öndər Heydər Əliyevin xalqın istək və arzusu ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra qadınlarımızın ictimai-siyasi həyatda fəallığı artmış, onların dövlət idarəçiliyində təmsilçiliyi, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması mühüm istiqamətlərdən birinə çevrilib. Bu gün Qəbələdə dövlət tərəfindən aparılan qadın siyasəti, bu istiqamətdə ulu öndər Heydər Əliyevin qoyduğu ənənələr rayon icra hakimiyyəti tərəfindən layiqincə həyata keçirilir, qadınların dövlət idarəçiliyində təmsil olunmasına diqqətlə yanaşılır. Bu günün özündə kişilərlə çiyin-çiyinə verib dövlət işlərində, səhiyyə, təhsil, mədəniyyət müəssisələrində və digər xidməti işlərdə çalışan çoxlu qadınlarımız vardır. Demək olar ki, adıgedən sahələrdə calışanların 70 faizi qadınlardır. Onlar çətin sınaq illərində də öz peşələrinin öhdəsindən şərəflə, vicdanla gəlmişlər. Ətayə Osmanova, Sədaqət Bayramova, Nargilə Qafarova, Arifə Bayramova, Rəna Mahmudova, Zinyət Bağırova, məktəb direktorlarından Məhəbbət Rüstəmova, Ziynət Babayeva, Ədilə Tağıyeva, Qəşəngi Musayeva, adlarını çəkə bilmədiyim səhiyyə, təhsil, mədəniyyət və digər xidmət işlərində çalışan qadınlarımız çağdaş dövrümüzün sayılıb-seçilən qadın ziyalılarıdırlar.

Onların rayonumuzda dövlətimizin möhkəmləndirilməsində, eləcə də təhsilin, səhiyyənin və mədəniyyətin inkişafında rolu günbəgün artır.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu qadın siyasəti Prezident cənab İlham Əliyev tərəfindən 2003-cü ildən bəri layiqincə həyata keçirilir. Prezident cəmiyyətdə qadınların roluna və yerinə, onların dövlət idarəçiliyində irəli çəkilmələrinə diqqətlə yanaşır və xüsusi önəm verir. Cənab Prezident hər il 8 mart—Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına ünvanladığı təbrik onun zərif cinsdən olan vətəndaşlara diqqətinin və ehtiramının təcəssümüdür. Prezident qadınlarımızın qazandığı uğurları dövlətin ali mükafatları ilə qiymətləndirir.

Azərbaycan qadınının bayramı bütün xalqımızın, müstəqillik ideyası ətrafında getdikcə daha çıx birləşən cəmiyyətin bayramıdır.

Bir sözlə, 8 mart bayramı xoş arzularla, böyük sevinclə yadda qalan analarımızın, nənələrimizin, xalalarımızın, bacılarımızın bayramıdır. Əziz qadınlarımız, bayramınız mübarək, sizlərə sağlam həyat, möhkəm can sağlığı və ailədə mehribanlıq arzulayıram!

**Aslan CƏLİLOV.**